AZƏRBAYJAN RESPUBLİKASI ADINDAN

Q Ə T N A M Ə

İş № 2(103)-1885/10

13 iyul 2010-ju il                                        Bakı şəhəri

Bakı Apellyasiya Məhkəməsinin mülki işlər üzrə kollegiyası

Hakimlərdən Gündüz Ağababa oğlu Quliyevin sədrliyi, İsmayıl Şamil oğlu Vəliyev və Mehparə Tofiq qızı Əhmədovanın tərkibində, S.X.Bəhrəmzadənin katibliyi ilə

Bakı Apellyasiya Məhkəməsinin binasında Bakı şəhəri Nəsimi Rayon Məhkəməsinin 10 fevral 2010-ju il tarixli qətnaməsindən Məmmədova Nigar Eldar qızının apellyasiya şikayətinə açıq məhkəmə ijlasında baxaraq

m ü ə y y ə n   e t d i:

Bakı şəhəri Nəsimi Rayon Məhkəməsinin 10 fevral 2010-ju tarixli qətnaməsi ilə iddiaçı Məmmədov Həmidağa Əlisəftər oğlunun cavabdeh Məmmədova Nigar Eldar qızına qarşı iddiası qismən təmin edilmiş, Məmmədov Həmidağa Əlisəftər oğluna 03.10.2005-ci il təvəllüdlü azyaşlı oğlu Əli-Səftər barəsində valideynlik hüquqlarının həyata keçirilməsi ilə əlaqədar hər həftənin bazar günü saat 13:00-dan saat 17:30-dək görüş müddəti müəyyən edilmişdir.

Həmin qətnamədən cavabdeh verdiyi apellyasiya şikayətində qətnamənin dəyişdirilərək görüş müddətinin hər ayda bir dəfə bazar günü saat 14:00-dan 16:00-dək müəyyən edilməsini xahiş etmişdir.

Apellyasiya şikayəti onunla əsaslandırılmışdır ki, uşağın 4 yaşı vardır. 4 yaşında olan uşaq təbiidir ki, özünü sərbəst idarə edə bilmir. Uşaq körpədir və körpə olduğundan onun soyuqdan və istidən qorunması da onun sağlamlığı üçün əsas şərtlərdən biridir. Hansı ki, uşağın atası istəsə də belə bütün bu göstərdiklərini onun qədər həyata keçirə bilməz. Bundan başqa məhkəmə onun işləməyini də nəzərə almamışdır.

Məhkəmə iclasının vaxtı və yeri barədə xəbərdar edilmiş tərəflər təkrar məhkəmə kollegiyasının iclasına gəlməmişlər.

Məhkəmə kollegiyası iş materiallarını araşdıraraq iş üzrə qəyyumluq və himayə orqanının rəyini nəzərə alaraq hesab edir ki, apellyasiya şikayəti təmin edilmədən, qətnamə dəyişdirilmədən saxlanılmalıdır.

İş materiallarından görünür ki, iddiaçı Məmmədov Həmidağa Əlisəftər oğlu cavabdeh Məmmədova Nigar Eldar qızına qarşı uşaqla ünsiyyət qaydasının və

vaxtının müəyyən edilməsi tələbinə dair iddia ərizəsi ilə məhkəməyə müraciət edərək öz iddia tələbini belə əsaslandırmışdır ki, 03 iyul 2004-cü il tarixdə cavabdehlə rəsmi nikaha daxil olaraq ailə qurmuşdur. Birgə nikah dövründə 03.10.2005-ci il tarixdə Əli-Səftər adlı uşağı anadan olmuşdur. Cavabdehlə münasibətləri pozulduğuna görə aralarında olan nikah Nəsimi Rayon Məhkəməsinin 24.11.2009-cu il tarixli qətnaməsi ilə ləğv edilmişdir. Aralarındakı nikah pozulana qədər də cavabdeh hər dəfə müxtəlif bəhanələr gətirərək uşaqla görüşməsinə maneə yaradırdı. Boşandıqdan sonra cavabdeh qanunsuz əməllərini davam etdirmiş, ona uşaqla görüşüb ünsiyyət yaratmağa imkan verməmiş, uşağı özü ilə Türkiyə Respublikasına apararaq bir ata kimi valideynlik hüquqlarını həyata keçirməsinə maneçilik törətmişdir. Bu səbəbdən hesab edir ki, cavabdehin bu hərəkətləri qanunsuz hesab edilməli və onun bir ata kimi uşaq barəsində hüquqları bərpa olunmalıdır. Göstərilənləri nəzərə alaraq iddiaçı 03.10.2005-ci il təvəllüdlü Əlisəftər adlı uşağı ilə görüşərək ünsiyyət saxlayıb onun təlim tərbiyəsində iştirak etməyi üçün hər həftənin bazar günləri saat 11:00-dan 21:00-dək görüş vaxtının müəyyən edilməsi barədə qətnamə çıxarılmasını xahiş etmişdir.

Birinci instansiya məhkəməsi tərəfindən mübahisə yuxarıda qeyd olunan qaydada həll edilmişdir.

Azərbaycan Respublikası Ailə Məcəlləsinin 61.1-ci maddəsinə əsasən uşaqlardan ayrı yaşayan valideyn onlarla ünsiyyət hüququna, uşaqların tərbiyə və təhsili ilə bağlı məsələlərin həll edilməsində iştirak etmək hüququna malikdir.

Həmin Məcəllənin 61.3-cü maddəsinə əsasən uşaqlarından ayrı yaşayan valideynlər valideynlik hüququnun həyata keçirilməsi qaydası haqqında yazılı saziş bağlaya bilərlər. Valideynlər razılığa gələ bilmədikdə, mübahisə onların (onlardan birinin) tələbi əsasında müvafiq icra hakimiyyəti orqanının iştirakı ilə məhkəmə tərəfindən həll edilir.

Həmin Məcəllənin 73.1-ci maddəsinə əsasən uşaqların tərbiyəsi ilə əlaqədar mübahisələrə məhkəmədə baxılarkən, uşağın müdafiəsi üçün iddianın kim tərəfindən qaldırılmasından asılı olmayaraq müvafiq icra hakimiyyəti orqanı işə cəlb edilir.

Həmin Məcəllənin 73.2-ci maddəsinə əsasən müvafiq icra hakimiyyəti orqanı mübahisə ilə bağlı uşağın və onun tərbiyəsi ilə məşğul olmaq istəyən şəxsin (şəxslərin) həyat şəraitini müayinə etməyə, müayinə aktını və mübahisəyə dair ona əsaslanmış rəyini məhkəməyə təqdim etməyə borcludur.

İş materiallarından görünür ki, uşaqlarından ayrı yaşayan iddiaçının uşaqla ünsiyyətlə bağlı valideynlik hüquqlarının həyata keçirilməsi ilə bağlı tərəflər arasında razılaşma olmadığına görə iddiaçı hazırkı iddia ərizəsi ilə məhkəməyə müraciət etmişdir.

Eyni zamanda iş materiallarından görünür ki, iddiaçı uşaqla ünsiyyətdə olması üçün hər həftənin bazar günləri saat 11:00-dan 21:00-dək vaxt müəyyən edilməsini xahiş etmiş, birinci instansiya məhkəməsinin iclasında iddiasını müdafiə etmiş, cavabdehin nümayəndəsi iki həftədə bir dəfə 2-3 saat vaxt müəyyən edilməsini xahiş etmiş, Nəsimi rayon icra hakimiyyəti Qəyyumluq və himayə orqanının nümayəndəsi iddiaçıya hər həftədə 4 saat görüş vaxtının müəyyən edilməsinin məqsədə müvafiq olduğunu göstərmişdir.

Bu halda birinci instansiya məhkəməsi haqlı olaraq hesab etmişdir ki, iddiaçı azyaşlı uşağından ayrı yaşasa da onun uşaqla ünsiyyət hüququ, onun tərbiyəsi ilə bağlı məsələlərin həll edilməsində iştirak etmək hüququnun həyata keçirilməsi

uşağın fiziki, psixi sağlamlığına, habelə əxlaqi inkişafına zərər yetirmir. Digər tərəfdən azyaşlı uşağın yaşının az olması (dörd yaş) nəzərə alınmaqla iddiaçı ilə uşaq arasında görüş vaxtının həftədə bir dəfə olmaqla saat 13:00–dan saat 17:30-dək müəyyən edilməsi məqsədə müvafiqdir.

Lakin bununla bərabər birinci instansiya məhkəməsi Ailə Məcəlləsinin 61.3 və 73-cü maddələrinin tələblərinə tam riayət etməmiş, qəyyumluq və himayə orqanını işə cəlb etsə də, mübahisəyə dair onların rəyinin məhkəməyə təqdim edilməsini təmin etməmişdir.

Bakı Apellyasiya məhkəməsinin MİÜMK-nın 20 aprel 2010-cu il tarixli qərardadı ilə həmin iş üzrə rəy verilməsi qəyyumluq və himayə orqanına həvalə edilmişdir.

Məhkəmə kollegiyasına təqdim edilmiş, Bakı şəhəri Nəsimi rayon İcra Hakimiyyətinin ”Qəyyumluq və Himayədarlıq” komissiyasının rəyi ilə iddiaçıya həftədə bir dəfə 3 saat görüş vaxtının müəyyən edilməsi məqsədə müvafiq hesab edilmişdir.

Beləliklə, məhkəmənin iş üzrə gəldiyi nəticə işin müəyyən edilmiş hallarına və qanunvericiliyin tələblərinə uyğun olmaqla apellyasiya şikayətinin dəlilləri mahiyyətcə düzgün olan məhkəmə qətnaməsinin ləğvi üçün əsas hesab edilə bilməz.

Şərh edilənlərə əsasən və Azərbayjan Respublikası Mülki Prosessual Məcəlləsinin 382, 384, 392, 393-jü maddələrini rəhbər tutaraq məhkəmə kollegiyası

q ə t e t d i:

Apellyasiya şikayəti təmin edilməsin.

Həmin iş üzrə Bakı şəhəri Nəsimi Rayon Məhkəməsinin 10 fevral 2010-ju il tarixli qətnaməsi dəyişdirilmədən saxlanılsın.

Qətnamədən 2 ay müddətində Azərbayjan Respublikası Ali Məhkəməsinin mülki işlər üzrə məhkəmə kollegiyasına Bakı Apellyasiya Məhkəməsi vasitəsi ilə kassasiya şikayəti verilə bilər.